# Ruhun keşiyində

## Millətçi yazıçı və yazıçının milləti

İndi deyəcəksiniz ki, tanınmayan biri də çıxdı o boyda F.M. Dostoyevskini tənqid etməyə. Sonra isə sən Dostoyevski kimi heç olmasa bir roman yaz, sonra tənqidə keçərsən deyəcəksiniz. Bunu deyə bilərsiniz, buna sözüm də olmaz. Ancaq bax bunu deyə bilməzsiniz ki, sən Dostoyevski qədər millətçi deyilsən. 12 yaşım olanda Cəlil Məmmədquluzadənin kitabını götürdüm əlimə. Oxuyanda ki, " Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım", o zaman mən dik atıldım və qulaqlarımı şəklədim qeybdən gələn bu məzəmmətvarı səslərə və sözlərə. Sonra kitabdan gələn suallara; Sən kimsən? Vətənin haradır? Dilin hansı dildir? ... Sonra M.Hadinin "Yox mənim millətimin xətti bu imzalar içində," misralarını oxuyub özümü tutdum sual atəşinə. Bu atəşdə o ki var, qovrulurdum və qovrularaq da sualları alovlu oxlar kimi öz başımın üstündən yağdırırdım. Necə ola bilər, axı insan ruhunu oxuya bilən, şəxsiyyətlər sırasında yer alan Dostoyevski bir türkün ruhunu oxuya bilməsin?! Axı onunla bir əsri paylaşan ədəbiyyat yolunda bir addımlayan qələm dostları Lermontov, Puşkin və Qafqaza taleləri düşən digər sənət fədailəri "Qafqaza gələn buradan şair gedər" deyirdilər. Böyük rus tənqidçisi V. Q. Belinski yazırdı:"Puşkin poeziyasının beşiyi olan Qafqaz, sonralar Lermontov poeziyasının da beşiyi oldu". Tatar dilini burada sevən şair M.F. Axundovdan bu dili həvəslə öyrənməyə başladı.O dostlarından birinə yazdığı məktubda Qafqaz camaatının yaxşı və ləyaqətli insanlar olduğunu yazırdı. Bəs maarifçi, əsl pedaqoq, əsli- nəcabəti rus olan A.O.Çernyayevski nə deyirdi? O Qafqaz azərbaycanlılarını vəhşi tatar adlandıran şovinistləri qınayırdı, çünki o uşaqlıqdan bu millətlə bir su içmişdi, bu millətin soykökünə dərindən bələd olmuşdu. O, Azərbaycan türklərinin saf olduğunu, oxumamış da bir mədəniyyət daşıyıcısı olduğunu dəfələrlə iclaslarda vurğulayırdı. Axı F.Dostoyevski həmyerlisinin bu millət üçün etdiklərini görməyə bilməzdi.Onda bəlkə, Çernyayevski düz deyirdi; "monarxiya sizin beyninizi qurd kimi gəmirir, bu millətdə yaxşı heç nə görmək istəmirsiniz". O bizi anladığına görə də millətimiz üçün "Vətən dili" dərsliyini çıxartmadımı? Onlardan 2 əsr öncə yaşamış fransalı arxeoloq A. Gelland isə türkü başa düşmək üçün onun dilini öyrənin, dedi. Necə ola bilər ki, öz humanistliyinin zirvəsinə çatan bir yazıçı (F.M.Dostoyevski) digər böyük bir milləti hər bir cəmiyyət üçün önəmli səciyyə daşıyan "Karamazov qardaşları" əsərində bu cür ikrah doğuran cümlələrlə yad eləsin? Səbəb nədir? Çar siyasətinin qurbanımı oldu azad ruhlu yazıçı? Yoxsa əsil -nəcabətindəki türklərdən incidiyini mübhəm kinə çevirib, onlardan bu cürmü qisas alırdı Dostoyevski...?

**(Davamı 16-cı səhifədə)**

Kredo 2020.- 9 yanvar.- S.13;16.

(Əvvəli 13-cü səhifədə)

Öz əsərləri ilə tarixə damğasını vurmuş sənətkarların dünya siyahısında önəmli yer tutması qədər təbii nə ola bilər. Ancaq bu da faktdır ki, cəmiyyətin çox hissəsi tarixdən çox bədii ədəbiyyat oxuyur və oxunan hər bir əsərdəki obraz və bu obrazların milliyyəti oxucunun qan yaddaşında mühüm izlər buraxır. Elə söhbəti də əslində milliyyətçi olan , qatı rusist, humanizmin öncüllərindən sayılan Dostoyevskiyə gətirirəm. Beləliklə, keçirəm əsil mətləbə. "Millətçi yazıçı və yazıçının milləti"

Dostoyevskinin əsl psixoanalitik olmağına şübhə yoxdur, ən azından mən də onun üç romanını oxuyub öz- özlüyümdə təhlil etmişəm. "Cinayət və cəza"nı oxuyanda bu yazıçı gözümdə göylərə ucaldı və mənim hisslərimi bu dərəcədə dərindən oxuya bilən bir yazıçı ilə eyni əsrdə yaşamadığıma təəssüf etdim və bir az da rus millətinə paxıllığım tutdu ki, 19- cu əsrdə siniflərarası kəskin mübarizə gedən bir vaxtda rus xalqı özünü tapmağa çalışarkən tarix onlara bu cür yazıçı bəxş etdi. Amma, deyəsən, bu ədəbiyyat və əbədiyyatın sirli qanunlarındandır ki, dahilər gec- gec insanların qarşısına çıxır, ya da heç çıxmır, bəzən isə bir əsr gözləməli olursan. Ancaq Dostoyevskinin xristian təfəkkürü təsvirinin ən dərin örnəklərindən olan " Karamazov qardaşları" romanını oxuyanda sevdiyim bir insanın silləsinə məruz qalmış kimi son dərəcə pərt və məyus oldum. Romanın maraqlı bir bölməsində iki qardaş söhbət edir və İvan Karamazov qardaşına deyir: -Türklər və çərkəzlər Bolqarıstanda böyük qəddarlıqlar törədiblər, qadınları və uşaqları zorlayır, ən dəhşətlisi isə məhbusları qulaqlarından mıxlayıb səhərə qədər saxlayırlar... Bu obraz, yəni Karamazov türklərin uşaqlara işgəncə verməyindən xüsusilə danışıb. Tatarlar deyəndə isə azərbaycanlıları nəzərdə tutub.Lakin qan yaddaşım bir Azərbaycan türkü olaraq bunları araşdırmağıma sövq edir məni. Əlbəttə ki, tarixçilər bu əsəri oxusalar, heç bir əsasa söykənməyən, faktlar gətirilməyən bu münaqişəli söhbətin nədən getdiyini anlayacaqlar, ancaq əsəri oxuyan hər kəs tarixçi deyil axı! Əvvəla, hörmətli Dostoyevskinin bu romanını oxuyaraq, onun kimi düşünənlərə demək istəyirəm ki, dünya tarixində türk millətləri savaşlarda ədalətli mübarizə aparmaqlarına görə seçilən bir xalq olub. Tousend boşuna deməyib , "Ədalətli savaşmaq istəyən türkləri seçsin". Qadınlar və uşaqlara verilən dəyər heç bir xalqda , bəlkə də, bu qədər yüksək həddə olmayıb. Ona görə də Kramer yazıb ; tarix türklərdən çox şey öyrəndi, onlar mədəniyyətin banisidir." Pierre Loti isə " Türklərə müqəddəs keyfiyyətləri təbiət özü bəxş etmişdir" , yazır. Kayzerlinq isə türklər Avropa və Asiyanın ən mədəni xalqıdır yazıb. Dostoyevski də ondan öncə dünyasını dəyişmiş Puşkin və Lermontov kimi tatar adlandırdığı bu xalqla iç-içə olsaydı, bircə dəfə Qoca Qafqazın başından türk insanını onlar kimi seyr etsəydi, ulu əcdadlarımızın sirli və müqəddəs ocağında qonaq olsaydı, tatar adlandırdığı azərbaycanlılar ilə səmimi həmsöhbət olsaydı, o zaman inanıram ki, onun həddindən ziyadə olan milli rusist hissləri yumşalacaq və psixoanalitik savadı imkan verəcəkdi ki, türklər və ya tatarlar adlandırdığı bir millət haqqında bu qədər qaba fikirlər yazıb, dünyanı türk milləti haqqında mübhəm düşüncələrə salmasın. Bizi elə ən çox araşdıran rus tədqiqatçılarının yazılarından bir neçə nümunəni bir millətçi yazıçı olaraq dilə gətirməyi özümə borc bilirəm. Humanist fikirli Dostoyevskini isə onun millətçi fikirlərinə görə qınamıram, başa düşürəm ki, 19- cu əsrdə ailə dəyərləri qalmayan, milli mənəviyyata ehtiyac duyan bir xalqa məhz Dostoyevski kimi " Ata" lazım idi. Və o, bunu layiqincə yerinə yetirirdi, rus xalqının ayılması üçün əlindən gələni edirdi.Hər bir müsbət obrazı ilə onlara ideal şəxsiyyət təqdim etməyə çalışırdı, örnəklər verirdi. Lakin onun digər bir millətin təfəkkür və düşüncəsini ayaqlar altına sərmək istəməsi millətçi yazar olaraq məni dərindən kədərləndirdi. Söhbət milli mənəviyyat məsələlərindən gedəndə hər bir yazıçı papağını qarşısına qoyub dərindən fikirləşməlidir, məncə. Dostoyevski 19- cu əsrdə 3 qardaşın - "Karamazovlar" ın timsalında birlik, qəhrəmanlıq, mənəvi dəyər ucalığı yaratmaq istəyərkən mənim yaşı min ildən də çox olan, mənəvi dəyəri qiymətsiz olan Göy Türklərin yadigarı "Kül Tigin" abidəm var . Və dünya tarixinə bir sübutdur ki, heç bir hökmdar qardaş Bilgə Xaqan kimi özündən kiçik qardaşını (həm də sərkərdəsini) bu qədər öyməyib və qardaşlıq barədə ən gözəl sözləri onun baş daşına həkk etməyib. Bəşər tarixində örnək olan bu abidənin yaradıcıları ilə( əcdadlarımız ilə) eyni dildə danışmaq bir fəxarətdir mənim üçün. Dostoyevskinin Puşkinin ölümündən sonra mərasimdə söylədiyi o möhtəşəm nitqində şairin ölümünə necə yandığını və bu yanğını xalqına da ötürdüyünün şahidi oldu bütün dünya. Ancaq talesiz Puşkin də, Lermontov da tatar gülləsinin deyil, rus gülləsinin qurbanı oldular. Qoca Qafqaz isə bir zamanlar qucağını açdığı bu şairlərə yas tutaraq göz yaşları tökdü. Bu vaxt isə Puşkinin "Qolub" "Göyərçin", poemasındakı Qafqazda çöllərə səpələnən "Başdaşları " miskin və kövrək avazları ilə çar siyasətini əsrlər boyu qınadı.

Məmmədova, Nurlana.